Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2024
Səh. 490-494
https://doi.org/10.62837/2024.3.490

**ABDURAHMANOVA GÜLTƏKIN RIZVAN**
*Bakı Slavyan Universiteti (BSU)*
*Bakı şəhəri, S.Rüstəm küç.,33*
*E-mail: gultekinabdurahmanova@amic.az*

# YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ PUBLİSİSTİKASINDA MÖVZU MÜXTƏLİFLİYİ

***Key words: Chamanzaminli journalism, national issue, language issue, national identity***
***Ключевые слова: Журналистика Чаманзаминли, национальный вопрос, языковой вопрос, , национальная идентичность***

**Xülasə**
Görkəmli ədəbiyyatşünas Yusif Vəzir Çəmənzəminli nə qədər nəsr sahəsində məşhurlaşsa da, ədibin publisistika sahəsində qələmə aldığı əsərlər özünəməxsusluğu ilə seçilirdi. Yazıçı, o dövrün demək olar ki, mühüm ictimai-siyasi, bədii preblemləri lə dərindən maraqlanmış və şahidi olduğu hadisələri gərək bədii, gərəksə də tənqidi cəhətdən öz publisist əsərlərində qələmə almışdır. Publisitika janrında yazılan əsərlər janr etibarı ilə rəngarəng idi. Bu sahədə memuar, felyeton, məqalə, oçerk və bundan başqa bir çox janrlarda müxtəlif mövzulu əsərlər yazmışdır. Janrların müxtəlifliyi ilə yanaşı, janrlarda olan mövzularda o dövr üçün aktual olan müxtəlif hadisələrdən bəhs edirdi. Publisistik əsərləri bir çox mətbuu orqanlarında dərc olunmuşdu. Elə bu sahədə ilk çıxışı yazıçının "Molla Nəsrəddin" jurnalı ilə olan əməkdaşlığında özünü göstərir.

O, hər cür haqsızlığz və ədalətsizliyə qarşı öz etiraz səsini ucaltmaqdan heç zaman çəkinməmişdi. Hər sahədə demək olar ki, ön plana çəkmiş, millətin qurtuluş yolu kimi tək çarəni elmdə, maariflənməkdə görmüşdür. Yusif Vəzir Çəmənzəminlinin publisistikasının öyrənilib, araşdırılması demək olarki, ümumilikdə XX əsr Azərbaycan publisistikasınıın mahiyyətinin dərk edilməsi idi. Ədibin publisitikasında qələmə alınan məqamlar, günümüz üçün aktual olan mövzulara toxunulması, bu gündə o əsərlərin həyatımızda vacib yerə malik olduğunu əks etdirir.
***Açar sözlər: Çəmənzəminli publisistikası, milli məsələ, dil məsələsi, milli kimlik***

Yusif Vəzir Çəmənzəminlinin bədii irsi Azərbaycan ədəbiyyatında özünəməxsus yerə malikdir. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli yazıçılarından olan Yusif Vəzir Çəmənzəminlinin bədii nəsrin inkşafında müstəsna xidməti olmuşdur. Yazıçının müxtəlif mövzularda qələmə aldığı əsərlərdə qaldırdığı problemlər bu gün dəaktuallığını qorumaqdadır.

Yaradıcılığı çoxşaxəli olan, Yusif Vəzirrin yaradıcılıq sahələrindən biri də publisistika sahəsi olmuşdur. Bu sahədə olan məqalələri mövzu müxtəlifliyi ilə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 490-494*
seçilirdi. O dövr üçün aktual olan hadisələr sənətkarın publisistik əsərlərində öz geniş əksini tapmışdır. Avamlığın, cəhalətin tənqidi, qadın azadlığı mövzusu, elmin, maarifçiliyin təbliği, əlifbanın islahatı və bir çox məsələlər Y.V.Çəmənzəminlinin publisistikasında fərqli məqamlarda işıqlandırılmışdır. O, publisistik məqalələrinin bəzilərini "Student Yusif Vəzirov" imzası ilə yazmışdır. Ədibin felyetonlarında "Molla Nəsrəddin" jurnalının təsiri də hiss olunur.

Yazıçının publisistik əsərlərində mövzu cəhətdən geniş yer alan mövzular sırasında elm və maarifçiliyin təbliği ön sıralarda dayanır. O, cəmiyyətin inkşafını yalnız insanların təhsil almasında, müxtəlif biliklərə yiyələnməsində görürdü. Sənətkarın zənnincə nə qədər ki, gerilik baş alıb gedəcək, o cəmiyyətdə heç bir zaman irəliyə doğru addım atmaq qeyri-mümkün olacaq. Bu məsələlərlə yanaşı Çəmənzəminli təhsil almasına baxmayaraq, boş-boş ətrafda gəzən insanları da tənqid hədəfinə çevirirdi. Boş işlərlə məşğul olmaqdansa, onların cəmiyyət üçün yararlı şəxs olması üçün çağırış edirdi. Y.Vəzir avamlıqdan, gerilikdən, nadanlıqdan qurtulmağın çarəsini təhsil ocaqlarının, məktəblərin faəliyyət gösdərməsində görürdü. Ədib publisist məqalələrində həmçinin tərbiyənin rolunu ön plana çəkirdi. O, tərbiyənin başlanğıcı olaraq ailəni, daha sonrakı mərhələlərdə isə məktəb tərbiyəsinin önəmini qeyd edirdi. "Xarabalıq" adlı məqaləsində belə qeyd edirdi ki; "Uşaq dəxi qabili-tərbiyə bir şey olduğuna görə onu nə tövr tərbiyə etsən o cürə adam çıxar. Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub evini yıxar." [2, s.35]

Qadın azadlığı mövzusu bir çox sənətkarlar kimi Çəmənzəminli yaradıcılığında da, xüsusən də publisistik əsərlərində öz əksini tapmışdır. Sənətkar düşünürdü ki, cəmiyyətdə tərbiyəli, ağıllı gənclərin yetişdirilməsi yalnız, öz hüquqlarını müdafiə edən, azad həyat tərzi sürən, elmli qadınlar sayəsində olacaqdır. Nə qədər ki, qadınlar evə məhkum olacaq, kiminsə qorxusu ilə yaşayacaq, eyni ilə onun böyüdüb yetişdirdiyi gənclər də onun yolu ilə gedəcək. "Y.V.Çəmənzəminli Azərbaycan qadınının həmişə savadlı, azad və mədəni görməyi arzulayırdı. Ürək ağrısı ilə yazılmış "Arvadlarımızın halı" məqaləsini oxuduqda o dövrdə Azərbaycan qadının taleyinin ədibi nə dərəcədə maraqlandırdığı və düşündürdüyü açıq aşkar hiss olunur." [2,s.40] Qadın azadlığı mövzusunda qələmə alınan məqalələrdə, günümüzdə hələ də bir çox məqamlarda öz yerini qoruyub saxlayan məsələlər, qadınların zorla ərə verilməsi, qız uşağının təhsil alması üçün qoyulan qadağalar, ailədə qız övladının dünyaya gəlməsinə yaxşı bir hadisə kimi baxılmaması kimi mövzulara da yazıçı tənqidi yanaşmışdır. Yusif Vəzir Çəmənzəminli qadınlarımızı hər zaman azad görməyi arzulayırdı. Gənc yaşda ailə həyatı qurmalarını, öz həyatları ilə bağlı azad şəkildə qərar verə bilməmələri yazıçını daim narahat edən nüanslardan idi. Şəxsiyyətin nə qədər cəmiyyətdə formalaşması qeyd olunsa da, əsas kökünün ailən gldiyini qeyd edən yazıçı- publisist tərbiyə mövzusuna xüsusi diqqət yetiridi. Tərbiyənin düzgün təşkili də məhaz ailədə tərbiyə verən şəxslərin maarifçi dünyagörüşünə malik olmasını, əks təqdirdə cəmiyyət üçün çoxda yaralı olmuyan nəslin yetişəcəyini qeyd edirdi. Məhz bu məslələrdə də elm və təhsilin önəmi, maarifçiliyin insan həyatında xüsusi önəmi nəzərə çatdırırdı.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 490-494*

Bir çox sənətkarların yaradıcılığında tez-tez rast gəldiyimiz bəzi məqamlar Y.V.Çəmənzəminli publisistikasından da yan keçməmişdir. Bunlardan əsas məqamlar, ədalətsizliyə qarşı mübarizə, böyüklərin kiçikləri əzməsi, ərin arvada qarşı zorakılıqı əsas yer tuturdu. Situasiyadan aslı olmayaraq, sənətkar hər məqamda bu hadisələrə qarşı çıxmış, həmin insanları tənqid hədəfinə çevirmişdir.

Azərbaycanın SSRİ-nin tərkinibə qatılması ilə, türk dili demək olar ki, sıradan çıxarılmağa başlamışdı. Belə bir dövrdə bir çox sənətkarlar türk dilinin qorunub saxlanılması yolunda addımlar atmışdır. Təbii ki, bu məsələ Y.V.Çəmənzəminli yaradıcılığından da yan keçməmişdir. Ədib türk dilinin təbliği sahəsində əzmlə mübarizə aparmışdır. Rus dilinin türk dilini sıxışdırıb sıradan çıxardığı bu dövrdə, həmçinin dilimizin fars və Osmanlı türkçəsinin təsiri altında qalması məsələsi də var idi. Sənətkar bu mövzuda məqalələr yazmaqla kifayətlənməyib, bununla yanaşı nəsr əsərlərində də bu mövzuya geniş yer vermişdir. Y.V.Çəmınzəminli dilimizin fars və türk dillərinin təsirindən çıxmasının, heç bir artırılma olmadan istifadə olunmasının, dilin saf şəkildə istifadə olunmasının tərəfdarı idi.

"Y.V.Çəmənzəminli publisistikasında Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsinə, tədqiqinə çağrış təkrar-təkrar səslənirdi. 1919-cu ildə "Azərbaycan" qəzetində nəşr olunmuş "Köçərlinin əsərləri" adlı məqaləsində ədin Firudin bəy Köçərli tərəfindən yazılmış " Azərbaycan ədəbiyyatı tarixi materialları"nın nəşrinin xalq üçün faydasından bəhs edir, bu qiymətli kitabın nəşri yolundakı hər cür çətinlikləri aradan qaldırmağa çağırırdı. Kitabı Bakıda basdırmaq mümkün olmadığı təqdirdə İstanbulda təb etdirməyi təklif edirdi." [2, s.7]

Yusif Vəzir Çəmənzəminli publisistikasında demək olar ki, dövrünün bütün problemlərinə toxunmuşdur. Ədib nəsr əsərlərində problemlərdən geniş bəhs etməklə yanaşı, publisitik əsərlərində də bu mövzulardan bəhs etmişdir.

XX əsr üçün aktual olan bəzi məslələr, digər yazıçıların yaradıcılığında əks olduğu kimi Çəmənzəminli yaradıcılığında da öz geniş əksini tapmışdır. Maarifçilyin təbliği, avamlığa, cahilliyə qarşı mübarizə, əlifba islahatı, təbəqələr arasında olan ədalətsizliyin aradan qaldırılması, əlifba islahatı və bu kimi mövzular Çəmənzəminli publisistikasında nə dərəcədə lakonik şəkildə öz ifadəsini tapsa da məna cəhətdən dərin və hərtərəfli idi.

Yazıçı öz dilimizinin qorunub-saxlanılması, gələcək nəsillərə ötürülməsi, xalq arasında geniş yayılması üçün hər bir qələm sahibini doğma dilində yazmağa çağırmış, bu yöndə bir sıra işlər görmüşdür. Adi xalqın öz dilində danışmasını fəxarət hissi ilə ifadə edən yazıçı, bununla kifayətlənməyi yetərli hesab etməmiş, dilin insanlar arasında daha çox inkişaf etməsi üçün, yazıçıları da bu dildə yazıb-yaratmağa dəvət etmişdir. "Dilin birliyi üç-dörd adamın bir dildə yazmağı ilə olmaz: dil gərək işlənsin, mürurla gəlib birləşsin. Dil qayırmaq zəiflik sevməz, zor gücü də qəbul etməz. Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində də belə gözəl, zərif və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, öyrənilsin, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, dolaşsın, öyrənə bilsin.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 490-494*
Əsil dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içində danışılmaqdadır. " [1, s.338]

## ƏDƏBİYYAT

1. Çəmənzəminli Y.V. Əsərləri, 3 cilddə, III c., Bakı: Avrasiya-Press, 2005, 440 səh.
2. Vəzirova L. Yusif Vəzir Çəmənzəminlinin publisistikası. Bakı: Nərgiz-P 2003, 180 səh.

Abdurahmanova Gultekin Rızvan

## SUBJECT DIVERSITY IN JUSIF VAZIR CHAMANZAMLI'S PUBLISHING

### Summary

No matter how well-known literary critic Yusif Vazir Chamanzaminli became famous in the field of prose, the works written by the writer in the field of journalism were distinguished by their uniqueness. The writer was deeply interested in almost important socio-political and artistic problems of that time and wrote down the events he witnessed in his journalistic works, both artistically and critically. The works written in the genre of journalism were diverse in terms of genre. In this field, he wrote memoirs, feuilletons, articles, essays and other works on various topics. In addition to the variety of genres, he talked about various events that were relevant for that time in the topics of the genres. His journalistic works were published in many press organizations. The writer's first appearance in this field is manifested in his collaboration with "Molla Nasreddin" magazine.

He never hesitated to raise his voice of protest against all kinds of injustice and injustice. He brought it to the fore in almost every field, and saw the only way to save the nation in science and education. Studying and researching the journalism of Yusif Vazir Chamanzaminli was almost the understanding of the essence of 20th century Azerbaijani journalism. The points written in the writer's publicity, touching on topics that are relevant for today, reflect that these works have an important place in our lives today.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 490-494*

Абдурахманова Гултекин Ризван

# ТЕМАТИЧЕСКОЕ РАЗНООБРАЗИЕ В ИЗДАТЕЛЬСТВЕ ЮСИФА ВАЗИРА ЧАМАНЗАМЛИ

## Краткое содержание

Как бы ни прославился в области прозы известный литературовед Юсиф Вазир Чаманзаминли, произведения, написанные писателем в области публицистики, отличались своей уникальностью. Писатель глубоко интересовался едва ли не важными общественно-политическими и художественными проблемами того времени и фиксировал события, свидетелем которых был, в своих публицистических произведениях как художественно, так и критически. Произведения, написанные в жанре публицистики, были разнообразны по жанру. В этой области он писал мемуары, фельетоны, статьи, очерки и другие произведения на различные темы. Помимо разнообразия жанров, он рассказывал о различных актуальных для того времени событиях в темах жанров. Его публицистические произведения публиковались во многих печатных изданиях. Первые выступления писателя на этом поприще проявились в сотрудничестве с журналом «Молла Насреддин».

Он никогда не колебался поднять голос протеста против всякого рода несправедливости и несправедливости. Он выдвигал ее на передний план практически во всех областях и видел единственный путь спасения нации в науке и образовании. Изучение и исследование журналистики Юсифа Вазира Чаманзаминли было почти пониманием сути азербайджанской журналистики XX века. Тезисы, написанные в публицистике писателя, затрагивающие актуальные на сегодняшний день темы, отражают то, что эти произведения занимают важное место в нашей сегодняшней жизни.

***Rəyçi: f.e.d , prof. L.M.İmaməliyeva***